# “Ən çox əməl edilməyən peşə standartları”

**Şamxal Kərimov**

**Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü**

**Sərbəst auditor**

**22.04.2026**

# Mündəricat

1. **BAS 230 - Auditin sənədləşdirilməsi**……………………………………………… 3
2. **BAS 315 - Müəssisə və onun mühitinin öyrənilməsi əsasında əhəmiyyətli təhrif risklərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi**… ............. 5
3. **BAS 500 - Audit sübutları**.......................................................................7
4. **BAS 505 – Kənar mənbədən təsdiqləmələr** .............................................. 9
5. **BAS 705 – Müstəqil auditorun hesabatında fərqli rəylər**.........................11

**BAS 230 - Auditin sənədləşdirilməsi**

BAS 230 audit prosesində aparılmış işin sənədləşdirilməsinə dair tələbləri müəyyən edir. Audit yalnız həyata keçirilmiş prosedurlardan ibarət deyil; həmin prosedurların, əldə edilmiş sübutların və qəbul edilmiş peşəkar qərarların düzgün sənədləşdirilməsi audit keyfiyyətinin ayrılmaz hissəsidir. Sənədləşmə auditorun gördüyü işin və əldə etdiyi audit sübutlarının əsaslandırılmış şəkildə qeydə alınmasıdır.

Audit sənədləşməsi elə formada hazırlanmalıdır ki, təcrübəli auditor audit faylını nəzərdən keçirdikdə görülmüş işin mahiyyətini, vaxtını, həcmini və əldə olunmuş nəticələri anlaya bilsin.

**Audit sənədləşməsinin mahiyyəti**

Audit sənədləşməsi audit zamanı aparılmış prosedurların, əldə edilmiş sübutların və qəbul edilmiş mühüm qərarların yazılı və ya elektron formada qeydə alınmasıdır.

Sənədləşmə yalnız nəticəni deyil, həm də qərarın necə verildiyini göstərməlidir.

Audit sənədləşməsi "təcrübəli auditor testi"ni keçməlidir, yəni audit faylını nəzərdən keçirən təcrübəli auditor əlavə izah almadan görülmüş işin mahiyyətini, vaxtını, həcmini və nəticələrini anlaya bilməlidir.

**Sənədləşmənin əhatə dairəsi**

Audit faylında aşağıdakı məsələlər aydın şəkildə göstərilməlidir:

- Aparılmış audit prosedurlarının mahiyyəti;
- Prosedurların icra vaxtı və həcmi;
- Prosedurları həyata keçirən şəxsin və icmalı aparan şəxsin kimliyi;
- Audit planı və ümumi audit strategiyası;
- Audit proqramı;
- Risklərin qiymətləndirilməsi üzrə işçi sənədlər;
- Sübut cədvəlləri və işçi sənədlər;
- Audit hesabatı layihələri;
- Əldə edilmiş nəticələr və gəlinmiş yekun qərarlar.

Mühüm mühakimələr və əhəmiyyətli məsələlər üzrə auditorun düşüncə prosesi sənədləşdirilməlidir. Əgər audit zamanı ziddiyyətli sübutlar əldə edilmişdirsə, onların necə qiymətləndirildiyi və yekun qərarın necə formalaşdırıldığı da göstərilməlidir.

Audit sənədləşməsi minimum olaraq aşağıdakı suallara cavab verməlidir: nə edilib, nə vaxt edilib, kim tərəfindən icra olunub və icmal edilib, hansı həcmdə icra olunub və hansı nəticəyə gəlinmişdir.

**Yekun audit faylının formalaşdırılması**

Audit hesabatının tarixindən sonra audit faylının yekunlaşdırılması prosesi vaxtında həyata keçirilməli və bu proses, bir qayda olaraq, 60 gündən artıq olmamalıdır. Bu mərhələdə yeni audit prosedurlarının icrası və ya yeni sübutların yaradılması nəzərdə tutulmur; yalnız inzibati və texniki tamamlanma həyata keçirilir.

Praktikada tez-tez rast gəlinən səhv ondan ibarətdir ki, auditorlar sənədləri toplamaqla kifayətlənir, lakin həmin sənədlər üzrə audit məqsədinə uyğun nəticə çıxarmır və bu nəticəni sənədləşdirmir. Bu isə audit sübutunun əldə edilməsi ilə sənədləşmənin qarışdırılmasıdır.

Yekunlaşdırmadan sonra audit faylına dəyişiklik yalnız əsaslandırılmış qaydada edilə bilər və belə dəyişikliklər sənədləşdirilməli, tarixi və səbəbi göstərilməlidir. Audit sənədləri audit hesabatı tarixindən etibarən adətən ***ən azı beş il müddətində*** saxlanılmalıdır.

Yerli qanunvericilik və ya firmanın siyasəti daha uzun müddət tələb edə bilər.

**Tez tez rast gəlinən xətalar**

- Audit yetəri səviyyədə sənədləşdirilmir. Sənədlər vergi yoxlaması məqsədləri üçün toplanır. BAS 230-un ruhu tam itir.

- Eyni mətnlər, eyni nəticələr müxtəlif müştərilərin fayllarında dəyişiklik edilmədən istifadə olunur.

- Keyfiyyətə nəzarət və məsuliyyət zənciri pozulur. İşçi sənədlərdə proseduru kim icra edib, kim review edib aydın göstərilmir.

- Prosedurların nə vaxt icra olunduğu qeyd edilmir və ya qeyri-məntiqi tarixlər olur.

- Audit prosesində yox, hesabatdan sonra sənədlər toplu şəkildə hazırlanır.

- Auditor nəticə yazır, amma niyə o nəticəyə gəlib yoxdur.

- Sənədlər 5 il müddətində saxlanılmır.

**BAS 315 - Müəssisə və onun mühitinin öyrənilməsi əsasında əhəmiyyətli təhrif risklərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi**

BAS 315 auditorun maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərini müəyyən etməsi və qiymətləndirməsi qaydasını müəyyən edir. Bu standart auditin risk əsaslı yanaşmasının əsasını təşkil edir və sonrakı mərhələlərdə tətbiq ediləcək prosedurların istiqamətini müəyyənləşdirir.

Audit təsadüfi testlər toplusu deyil. O, risklərin sistemli şəkildə müəyyən edilməsi və həmin risklərə uyğun cavab tədbirlərinin formalaşdırılması prosesidir.

BAS 315-in məqsədi auditorun müəssisəni və onun mühitini, o cümlədən daxili nəzarət sistemini başa düşməsi və bu məlumatlar əsasında maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərini müəyyən edib qiymətləndirməsidir.

Risklərin düzgün qiymətləndirilməsi audit planının əsasını təşkil edir və tətbiq ediləcək prosedurların xarakterini, vaxtını və həcmini müəyyən edir.

Auditor əldə etdiyi məlumatları yalnız təsvir etməməli, həmin məlumatların hansı risklərə səbəb ola biləcəyini təhlil etməlidir.

Risk anlayışı əhəmiyyətliliklə sıx bağlıdır. Əhəmiyyətlilik maliyyə hesabatlarında hansı yanlışlıqların qərar qəbul edən istifadəçilər üçün mühüm sayıldığını müəyyən edir.

Auditor riskləri qiymətləndirərkən eyni zamanda əhəmiyyətlilik səviyyəsini nəzərə almalıdır. Aşağı əhəmiyyətlilik səviyyəsi daha geniş audit prosedurlarını tələb edə bilər.

**Müəssisəni və Mühitini Başa düşmə**

Auditor riskləri müəyyən etməzdən əvvəl müəssisənin fəaliyyətini, sənaye mühitini, tənzimləyici çərçivəni, biznes modelini və daxili nəzarət sistemini başa düşməlidir.

Müəssisənin gəlir modeli, maliyyələşmə strukturu, idarəetmə mühiti və informasiya sistemləri risk qiymətləndirməsinin əsas mənbələridir.

Bu mərhələdə əldə olunan məlumatlar risklərin hansı sahələrdə formalaşa biləcəyini müəyyən etməyə imkan verir.

Auditor informasiya texnologiyaları mühitinin xüsusiyyətlərini və ümumi İT nəzarətlərini də risk qiymətləndirməsinin tərkib hissəsi kimi nəzərdən keçirməlidir.

**Əhəmiyyətli Risklər**

Bəzi risklər xüsusilə əhəmiyyətli hesab olunur və əlavə diqqət tələb edir.

Bu risklər adətən:

- Qeyri-adi və ya mürəkkəb əməliyyatlar;
- Subyektiv mühasibat qiymətləndirmələri;
- Rəhbərliyin mühakiməsinə əsaslanan sahələr;
- Dələduzluq riski ilə əlaqəli əməliyyatlar ilə bağlı olur.

Auditor belə riskləri ayrıca müəyyən etməli və həmin sahələr üzrə daha dərin audit yanaşması tətbiq etməlidir.

Əhəmiyyətli risklər üzrə auditor xüsusi audit prosedurları formalaşdırmalı və həmin sahələrdə nəzarət mexanizmlərini ayrıca qiymətləndirməlidir.

**Daxili Nəzarətin Qiymətləndirilməsi**

Auditor daxili nəzarət sistemini yalnız təsvir etmək üçün deyil, riskləri qiymətləndirmək məqsədilə öyrənir.

Əgər daxili nəzarət effektivdirsə, nəzarət riski aşağı qiymətləndirilə bilər. Əks halda, auditor maddi prosedurların həcmini artırmalıdır.

Daxili nəzarətin anlaşılması nəzarət mühiti, müəssisənin risklərin qiymətləndirilməsi prosesi, informasiya sistemi və kommunikasiya, nəzarət fəaliyyətləri və monitorinq proseslərini əhatə etməlidir.

**Risklərin Sənədləşdirilməsi**

Risklərin müəyyən edilməsi və qiymətləndirilməsi audit faylında sistemli şəkildə sənədləşdirilməlidir.

Sənədləşmə auditorun:

- Hansı riskləri müəyyən etdiyini;
- Hansı bəyanatlar üzrə riskin mövcud olduğunu;
- Risk səviyyəsinin necə qiymətləndirildiyini;
- Hansı əsaslara istinad edildiyini

aydın göstərməlidir.

Sənədləşmə auditorun peşəkar mühakiməsinin əsaslandırılmasına xidmət etməlidir.

**Tez tez rast gəlinən xətalar**
- Müvafiq sənədləşmənin aparılmaması. Risklərin vergi məqsədləri üçün qiymətləndirilməsi.
- Risk əvəzinə mövzu yazılması. “Gəlir riski” - Bu risk deyil, sadəcə sahənin adıdır. Risk konkret olaraq nə səhv ola bilər sualına cavab verməlidir.
- Daxili nəzarətin formal qiymətləndirilməsi. Auditor daxili nəzarətin effektivliyini qiymətləndirmir. Nəzarət mühiti başa düşülmür.
- Eyni risklər fərqli müştərilərdə dəyişiklik edilmədən istifadə olunur.

- Risklərin sənədləşdirilməsinin formal xarakter daşıması. Risklər siyahı şəklində yazılır, lakin analiz və əsaslandırma yoxdur.

**BAS 500 - Audit sübutları**

BAS 500 auditorun maliyyə hesabatları üzrə rəy formalaşdırmaq üçün yetərli və münasib audit sübutu əldə etməsini tənzimləyir.

Audit tam yoxlama deyil və auditor ağlabatan əminlik əldə etmək üçün yetərli və münasib audit sübutu toplamalıdır.

**Yetərli və Münasib Audit Sübutu**

Yetərlilik və münasiblik bir-biri ilə qarşılıqlı əlaqəlidir: sübutun keyfiyyəti yüksək olduqda daha az miqdarda sübut kifayət edə bilər, əks halda auditor daha çox sübut toplamalıdır.

Auditor risk səviyyəsinə uyğun olaraq həm yetərlilik, həm də münasibliyi birlikdə qiymətləndirməlidir.

Audit sübutu sənədlərin mövcudluğu deyil, həmin sənədlər əsasında auditorun gəldiyi nəticənin əsaslandırılmasıdır.

**Audit Sübutunun Mənbələri**

Audit sübutu müxtəlif mənbələrdən əldə edilə bilər. Xarici mənbələrdən alınmış sübut adətən daxili mənbələrdən əldə edilən sübutdan daha etibarlı hesab olunur. Yazılı sübut şifahi sübutdan daha yüksək dəyərə malikdir. Birbaşa auditor tərəfindən əldə edilmiş sübut dolayı sübutdan daha etibarlıdır.

**Audit Prosedurlarının Növləri**

Audit sübutu müxtəlif audit prosedurları vasitəsilə əldə edilir.

Sübutun əldə edilməsində ən çox istifadə olunan üsullardan biri sorğudur. Sorğu auditorun rəhbərlikdən və ya digər əməkdaşlardan məlumat almasını nəzərdə tutur. Lakin sorğu yolu ilə əldə edilən məlumat adətən təkbaşına yetərli və münasib sübut hesab edilmir və digər prosedurlarla dəstəklənməlidir.

Müşahidə auditorun proseslərin və nəzarət mexanizmlərinin icrasını birbaşa izləməsidir. Müşahidə müəyyən anda tətbiq olunan proseduru göstərir, lakin davamlı effektivlik barədə tam sübut yaratmaya bilər.

Sənədlərin yoxlanılması (inspection) müqavilələrin, qaimələrin, bank çıxarışlarının və digər sənədlərin təhlilini əhatə edir və geniş istifadə olunan sübut mənbəyidir.

Xarici təsdiqlər auditorun üçüncü tərəflərdən birbaşa yazılı məlumat almasını nəzərdə tutur və adətən yüksək etibarlılığa malikdir.

Yenidən hesablama auditorun maliyyə məlumatlarını müstəqil şəkildə hesablamasını, yenidən icra isə nəzarət prosedurlarının auditor tərəfindən təkrar həyata keçirilməsini ifadə edir. Bu üsullar sübutun etibarlılığını artıran birbaşa audit prosedurları hesab olunur.

Analitik prosedurlar isə göstəricilər və tendensiyalar arasında əlaqələrin təhlilinə əsaslanır və həm risklərin müəyyən edilməsi, həm də maddi prosedur kimi tətbiq edilə bilər.

Auditor qiymətləndirilmiş risk səviyyəsinə uyğun olaraq bu prosedurların münasib kombinasiyasını tətbiq etməlidir. Heç bir audit proseduru təkbaşına yetərli və münasib audit sübutu yaratmır; auditor müxtəlif prosedurların nəticələrini birləşdirərək yekun nəticəyə gəlməlidir.

**Münasib olmayan Sübutlar**

Əgər müxtəlif mənbələrdən əldə edilmiş sübutlar bir-biri ilə ziddiyyət təşkil edirsə, auditor əlavə prosedurlar tətbiq etməlidir.

Auditor ziddiyyət təşkil edən sübutları nəzərə almadan və onları izah etmədən audit rəyini formalaşdıra bilməz.

Ziddiyyətli sübutlar mövcud olduqda auditor əvvəlki nəticələri yenidən qiymətləndirməli və zəruri hallarda əlavə və ya alternativ prosedurlar tətbiq etməlidir.

Rəhbərlik tərəfindən təqdim olunan məlumat avtomatik olaraq yetərli və münasib sayılmır. Auditor rəhbərliyin mümkün meyillərini (management bias) nəzərə alaraq sübutları qiymətləndirməlidir. Rəhbərlik tərəfindən təqdim olunan yazılı bəyanatlar (BAS 580) audit sübutunun bir hissəsi olsa da, onlar digər audit prosedurları ilə dəstəklənməlidir.

**Tez tez rast gəlinən xətalar**

- Sübutlar toplamağın mahiyyətinin başa düşülməməsi. Sübut olmadan rəy verilməsi.

- Sənədin avtomatik olaraq audit sübutu kimi qəbul edilməsi. Sənəd var amma nəyi sübut edir? Hansı riski bağlayır?

- Tək mənbəyə əsaslanma. Auditor yalnız rəhbərliyin təqdim etdiyi sənədlərə və ya daxili məlumatlara əsaslanır.

- Sorğuya həddindən artıq etibar. Rəhbərlikdən və ya əməkdaşlardan alınan məlumat əlavə sübut olmadan qəbul edilir. Sorğu təkbaşına yetərli sübut deyil.

- IT sistemlərdən çıxarılan məlumatlara kor etibar. ERP və ya digər sistemlərdən çıxarılan məlumatlar heç bir yoxlama aparılmadan qəbul edilir. Data integrity riski nəzərə alınmır.

- Risk səviyyəsinə uyğun sübut toplanmaması. Yüksək riskli sahələrdə kifayət qədər sübut toplanmır, aşağı riskli sahələrdə artıq və lazımsız sübut toplanır.

**BAS 505 – Kənar mənbədən təsdiqləmələr**

BAS 505 auditorun üçüncü tərəflərdən birbaşa yazılı cavab almaq yolu ilə audit sübutu əldə etməsini tənzimləyir. Xarici təsdiqlər adətən yüksək etibarlılığa malik sübut hesab olunur, çünki məlumat auditorun nəzarəti altında həyata keçirilən proses vasitəsilə müstəqil mənbədən əldə edilir.

Xarici təsdiqlər xüsusilə debitor borcları, kreditor borcları, bank qalıqları və digər üçüncü tərəflərlə bağlı qalıqlar üzrə geniş tətbiq olunur.

Xarici təsdiq – auditorun üçüncü tərəfə birbaşa müraciət edərək müəyyən məlumatın doğruluğunu təsdiq etməsidir. Cavab birbaşa auditor tərəfindən alınmalı və təsdiq prosesinə rəhbərlik tərəfindən müdaxilə edilməməlidir.

Xarici təsdiqlər maliyyə hesabatlarının mövcudluq, hüquq və öhdəliklər, eləcə də dəqiqlik bəyanatları üzrə mühüm sübut yaradır.

**Təsdiqlərin Növləri**

Xarici təsdiqlər müsbət və mənfi formada tətbiq edilə bilər.

Müsbət təsdiq zamanı cavab hər bir halda tələb olunur və təsdiq edilən məbləğin düzgün olub-olmamasından asılı olmayaraq üçüncü tərəf cavab verməlidir. Bu üsul daha etibarlı hesab olunur.

Mənfi təsdiq isə yalnız uyğunsuzluq olduqda cavab verilməsini nəzərdə tutur və adətən aşağı riskli hallarda tətbiq edilir.

**Auditorun Nəzarəti**

Auditor təsdiq məktublarının hazırlanması, göndərilməsi və cavabların qəbul edilməsi prosesinə birbaşa nəzarət etməlidir. Rəhbərlik tərəfindən seçilmiş və ya dəyişdirilmiş siyahılar üzrə təsdiq göndərilməsi risk yarada bilər.

Əgər cavab auditorun nəzarətindən kənar şəkildə əldə olunarsa, sübutun etibarlılığı azalır.

**Elektron Təsdiqlər və Saxtalaşdırma Riski**

Müasir audit praktikasında xarici təsdiqlər getdikcə elektron vasitələrlə həyata keçirilir. Elektron poçt, xüsusi təsdiq platformaları və digər rəqəmsal kanallar vasitəsilə alınan cavablar operativlik təmin etsə də, saxtalaşdırma riski yarada bilər.

Auditor elektron təsdiqlərin etibarlılığını qiymətləndirərkən cavabın mənbəyini, göndərən ünvanın həqiqiliyini və üçüncü tərəfin şəxsiyyətinin doğruluğunu yoxlamalıdır. Xüsusilə

rəhbərlik tərəfindən təqdim olunan elektron əlaqə məlumatlarına kor-koranə etibar etmək uyğun hesab edilmir.

Elektron cavabın həqiqiliyinə şübhə yarandıqda auditor alternativ təsdiq üsullarına müraciət etməli və ya cavab verən tərəflə birbaşa əlaqə saxlamalıdır.

Saxtalaşdırılmış təsdiq cavabları xüsusilə dələduzluq riskinin mövcud olduğu hallarda əhəmiyyətli təhriflərə səbəb ola bilər. Buna görə auditor təsdiq prosesinə tam nəzarəti saxlamalı və cavabların mənbəyini müstəqil şəkildə yoxlamalıdır.

Əgər müsbət təsdiqə cavab alınmazsa, auditor alternativ prosedurlar tətbiq etməlidir. Bu prosedurlar sonrakı ödənişlərin yoxlanılması, müqavilələrin və daşınma sənədlərinin təhlili kimi üsulları əhatə edə bilər.

**Münasib Olmayan Cavablar**

Əgər təsdiq cavabı müəssisə qeydləri ilə uyğun gəlmirsə, auditor fərqin səbəbini araşdırmalıdır. Uyğunsuzluq səhv, vaxt fərqi və ya potensial yanlışlıq nəticəsində yarana bilər.

Auditor fərqin xarakterini və əhəmiyyətlilik səviyyəsini qiymətləndirməli və zəruri hallarda əlavə prosedurlar tətbiq etməlidir.

**Tez tez rast gəlinən xətalar**

- Xarici təsdiqlərin alınmaması.

- Təsdiq prosesinin rəhbərliyə (mühasibə) həvalə edilməsi. Bu zaman auditor prosesə nəzarəti itirir, sübutun etibarlılığı ciddi şəkildə azalır.

- Seçimin müstəqil aparılmaması. Təsdiq göndəriləcək debitor/kreditor siyahısı rəhbərlik tərəfindən seçilir, auditor sadəcə təsdiq edir. Riskli və problemli qalıqlar seçilmədən kənarda qalır.

- Elektron təsdiqlərə kor etibar. Email ilə alınan cavab yoxlanılmadan qəbul edilir, göndərən ünvan təsdiqlənmir. Saxtalaşdırılmış təsdiq riski nəzərə alınmır.

- Cavab alınmadıqda heç bir tədbir görülməməsi. Cavab gəlmir və auditor bunu "problem yoxdur" kimi qəbul edir. Alternativ prosedurlar tətbiq edilmir.

- Saxta təsdiq riskinin nəzərə alınmaması. Xüsusilə kiçik və orta bizneslərdə əlaqəli tərəflərlə əməliyyatlarda saxta təsdiq cavabları ehtimalı qiymətləndirilmir.

**BAS 705 – Müstəqil auditorun hesabatında fərqli rəylər**

BAS 705 auditorun maliyyə hesabatları üzrə rəyin modifikasiyası hallarını və dəyişdirilmiş rəy növlərini tənzimləyir.

Auditor rəyini iki əsas səbəbə görə dəyişdirə bilər. Rəyin modifikasiyası aşkar edilmiş problemin xarakterindən və əhatə dairəsindən asılıdır.

**Rəyin Modifikasiya Səbəbləri**

Auditor aşağıdakı hallarda rəyin modifikasiyasını nəzərdən keçirməlidir:

1. Maliyyə hesabatlarında əhəmiyyətli təhrif mövcuddur və düzəliş aparılmayıb.
2. Auditor yetərli və münasib audit sübutu əldə edə bilməmişdir.

Hər iki halda auditor problemin həm əhəmiyyətliliyini, həm də geniş yayılmış (pervasive) olub-olmadığını qiymətləndirməlidir.

Təhrif müəyyən edilmiş əhəmiyyətlilik həddini aşdıqda və düzəliş aparılmadıqda, rəyin modifikasiyası zəruri ola bilər.

Auditor rəy növünü müəyyən edərkən əvvəlcə problemin xarakterini (təhrif və ya sübut məhdudiyyəti), sonra isə onun əhəmiyyətliliyini və geniş yayılmışlıq səviyyəsini sistemli şəkildə qiymətləndirməlidir.

Təhrifin bir hissəsi düzəldilmiş, bir hissəsi isə qalmaqda davam edirsə, auditor qalan hissənin əhəmiyyətliliyini və geniş yayılmışlıq səviyyəsini ayrıca qiymətləndirməlidir.

**Rəy Növləri**

Dəyişdirilmiş rəy üç formada təqdim oluna bilər:

*Şərtli rəy (Qualified opinion)*

Təhrif və ya sübut məhdudiyyəti əhəmiyyətlidir, lakin geniş yayılmış deyil.

*Mənfi rəy (Adverse opinion)*

Təhrif həm əhəmiyyətlidir, həm də geniş yayılmışdır və maliyyə hesabatlarının bütövlükdə etibarlılığına təsir edir.

*Rəy verməkdən imtina (disclaimer of opinion)*

Rəy verməkdən imtina halında auditor hesabatında rəy bölməsinin məzmunu dəyişir və auditor maliyyə hesabatları barədə rəy ifadə etmədiyini açıq şəkildə bəyan edir.

Sübut məhdudiyyəti həm əhəmiyyətlidir, həm də geniş yayılmışdır və auditor kifayət qədər sübut əldə edə bilməmişdir.

Sübut məhdudiyyəti yalnız müəyyən sahə ilə məhdudlaşırsa və maliyyə hesabatlarının bütövlükdə təqdimatına təsir etmirsə, şərtli rəy verilə bilər.

Lakin məhdudiyyət auditin əsas hissələrini əhatə edirsə və auditor kifayət qədər sübut əldə edə bilmirsə, rəy verməkdən imtina tələb olunur.

**"Geniş Yayılmış" Anlayışı**

"Geniş yayılmış" anlayışı maliyyə hesabatlarının bütövlükdə təqdimatına təsir edən və ya bir neçə əsas sahəni əhatə edən halları ifadə edir.

Əgər təhrif maliyyə hesabatlarının əsas elementlərinə sistemli təsir göstərirsə, bu hal geniş yayılmış hesab edilə bilər.

Geniş yayılmışlıq qiymətləndirilərkən həm kəmiyyət, həm də keyfiyyət meyarları və istifadəçilərin iqtisadi qərarlarına potensial təsir nəzərə alınmalıdır.

**Hesabatın Strukturunda Dəyişiklik**

Rəy modifikasiya olunduqda auditor hesabatında "Rəy üçün əsas" bölməsi genişləndirilir və dəyişdirilmiş rəy bölməsi uyğun şəkildə ifadə edilir.

Məsələnin mahiyyəti aydın və konkret şəkildə izah olunmalıdır.

Dəyişdirilmiş rəy verildikdə, rəy bölməsində istifadə olunan ifadə dəyişdirilir və "Rəy üçün əsas" bölməsi rəy bölməsindən əvvəl yerləşdirilir. Problemin mahiyyəti konkret və ölçülə bilən şəkildə təsvir edilməlidir.

**Praktik Nümunə**

Müəssisə ehtiyatların dəyərsizləşməsini düzgün əks etdirməmiş və bu təhrif əhəmiyyətlidir, lakin yalnız ehtiyatlar maddəsinə təsir edir.

Bu halda auditor şərtli rəy təqdim edə bilər.

Əgər təhrif bir neçə əsas sahəni əhatə edir və maliyyə hesabatlarının bütövlükdə etibarlılığına təsir edirsə, mənfi rəy tələb oluna bilər.

**Tez tez rast gəlinən xətalar**

- Əhəmiyyətli təhrif olduğu halda müsbət rəy verilməsi. Maliyyə hesabatlarında açıq-aşkar səhvlər var, düzəliş aparılmayıb. Auditor buna baxmayaraq modifikasiya olunmamış rəy verir. Səbəb odur ki, vergi hesabatları doğru tərtib olunub.

- Rəy modifikasiyasından "qaçma". Auditor müştərini itirməmək üçün, rəhbərliyin təzyiqi ilə şərtli və ya mənfi rəy verməkdən çəkinir.

- Disclosure (açıqlama) səhvlərinin nəzərə alınmaması. Maliyyə hesabatında mühüm açıqlamalar yoxdur və ya səhvdir. Auditor bunu rəy modifikasiyası kimi qiymətləndirmir. İzahedici qeydlərə sadəcə "söz yığını" kimi baxılır.

- Rəy verməkdən imtinanın tətbiq edilməməsi. Auditor kifayət qədər sübut əldə edə bilmir amma yenə də rəy verir (adətən mənfi rəy). Bu ciddi standart pozuntusudur.

- Rəy üçün əsas bölməsinin zəif yazılması. Modifikasiya verilir amma problem konkret izah olunmur, məbləğ göstərilmir və istifadəçi üçün aydın deyil. Hesabatın dəyəri azalır.

- Rəy düzgün formada tərtib olunmur. Köhnə formalardan istifadə olunur. MHBS və BAS istinadları verilmir. Rəhbərliyin və auditorun məsuliyyəti çox qısa göstərilir.

- Maliyyə hesabatları müəssisənin direktoru və baş mühasibi əvəzinə auditor tərəfindən imzalanır. Və ya izahedici qeydlər auditor tərəfindən möhürlənir.

- Cinayət auditləri üzrə müstəqil auditor hesabatlarında sifarişçilərin imzası olmamalıdır.